**Umberto Eko**

# ƏBƏDİ FAŞİZM

**Tərcümə etdi:**
**Əli Novruzov**
**ali@novruzov.az**

1942-ci ildə, 10 yaşımda mən italiyalı faşist məktəblilər arasında (yəni bütün italiyalı məktəblilər arasında) keçirilən könüllü və həm də məcburi *Ludi Juveniles* olimpiadasında birinci yerin qalibi oldum. Mən ritorik məharətlə "İtaliyanın əbədi taleyi və Mussolininin[i] şöhrəti uğrunda ölməliyikmi?" mövzusunda öz bacarığımı göstərdim. Mən sübut etdim ki, biz ölməliyik. Mən ağıllı oğlan idim.

Daha sonra, 1943-cü ildə "azadlıq" sözünün mənası mənə aydın oldu. Bu yazının sonunda necəsini izah edəcəyəm. O an "azadlıq" hələ "azad olmaq" mənasını vermirdi.

Uşaqlığımın iki ili belə keçmişdi - ətrafımda nasistlər, faşistlər və partizanlar biri-birinə atəş açırdı, mən isə güllələrdən yayınmağı öyrənirdim. Deyim ki, çox səmərəli vərdişdir.

1945-ci ilin aprelində partizanlar Milanı ələ keçirdilər. İki gün sonra onlar bizim şəhərciyi də tutdular. Bax, əsl bayram onda idi. Mərkəzi meydanda vətəndaşlar toplaşmışdı – mahnı oxuyurdular, bayraqları yelləyirdilər. İnsanlar tez-tez partizan dəstəsinin komandiri Mimmonu çağırırdılar. Keşmişdə karabiner[ii] çavuşu olan Mimmo sonradan Marşal Badolyonun[iii] tərəfinə keçmiş, ilk döyüşlərin birində ayağını itirmişdi. O, bələdiyyənin eyvanına çıxdı, rəngi ağarmışdı. Bir əli ilə qoltuqağacına söykənib, o biri əliylə camaatı sakitləşdirməyə çalışırdı. Mən də hamı kimi təntənəli nitq gözləyirdim – bütün mənim uşaqlığım Mussolininin əzəmətli tarixi çıxışlarının atmosferində keçmişdi, məktəbdə onun nitqlərinin ən təsirli yerlərini əzbərdən öyrənirdik. Meydana sükut çökürdü. Mimmo xırıltılı səsi ilə nə isə danışırdı, demək olar ki, eşitmək olmurdu: "Vətəndaşlar, dostlar.

Uzun məşəqqətlərdən sonra... biz buradayıq. Azadlıq uğrunda şəhid olanlara əbədi şöhrət." Və bununla da çıxış bitdi. O arxasını çevirib getdi. Camaat sevinc içində çığırmağa başladı. Partizanlar silahlarını silkələyir, göyə atəş açırdılar. Biz, oğlanlar, güllələrin gilizlərini toplamağa başladıq – onlar dəyərli kolleksiya eksponatları idi. O gün mən anladım ki, söz azadlığı həm də təntənəli nitqlərdən azad olmaq deməkdir.

Bir neçə gündən sonra ilk amerikalı əsgərlər gözə dəydi. Onlar qaralar idi. Mənim ilk "yanki" tanışım Cozef də qaradərili idi. O, məni Dik Treysi və Lil Ebnerin[iv] əsrarəngiz dünyası ilə tanış etdi. Onun komiks kitabçaları çoxrəngli idi və gözəl qoxuyurdu.

Zabitlərdən birini – o, ya mayor Maddi idi, ya kapitan Maddi – iki məktəb yoldaşımın valideynləri öz villalarına qonaq çağırmışdılar. Bizim nəcib xanımlar əllərində toxuma milləri, bağçada oturub təxmini fransız dilində danışırdılar. Kapitan Maddi də yaxşı təhsil almışdı və fransız dilini babat bilirdi. Mənim xilaskar amerikanlar haqqında ilk təəssüratım belə formalaşdı – adət etdiyimiz o qədər qaraköynəkli bəyaz simalardan[v] sonra qəfildən sarı-yaşıl mundirdə intellektual qaradərili və o fransızca deyirdi: "*Oui, merci beaucoup, Madame, moi aussi j'aime le champagne…*"[vi] Təəssüf ki, şampan şərabı əslində yox idi, amma mənə ilk saqqızımı kapitan Maddi vermişdi. Mən onu xeyli müddət çeynədim və hər gecə su ilə dolu stəkana qoyurdum.

Mayda bizə dedilər ki, müharibə başa çatıb. Dünya mənə çox qəribə göründü. Mənə öyrətmişdilər ki, permanent müharibə hər bir gənc italiyalının normal həyat tərzidir. Sonrakı aylar öyrəndik ki, Müqavimət hərəkatı məhəlli bir şey deyilmiş, Ümumavropa fenomeni imiş. Mən yeni sözlər öyrənirdim - réseau, maquis, armée secrète, Rote Kapelle, Varşava gettosu[vii]. Mən yəhudilərin soyqırımından – holokostdan ilk şəkilləri gördüm və sözün özündən öncə mənası ilə tanış oldum. Mən bizi nədən azad etdiklərini başa düşdüm.

İtaliyada bu gün bəziləri soruşur ki, Müqavimət hərəkatı hansısa real hərbi rola malik idimi? Mənim nəslim üçün bu sual yersizdir. Biz Müqavimətin mənəvi və psixoloji gücünü dərhal hiss etmişdik. Bizə qürur verən o idi ki, biz, Avropa xalqları əlimizi yanımıza salıb azad edilməyi gözləməmişik. Düşünürəm ki, qanları bahasına bizi azad edən gənc amerikalılar üçün də cəbhə xəttinin arxasında, avropalılar arasında eyni fidiyəni ödəyənlərin olmasını bilmək əhəmiyyətsiz deyildi.

İtaliyada bu gün bəziləri həm də deyir ki, Avropada Müqavimət kommunistlərin uydurmasıdır. Həqiqətən də kommunistlər Müqaviməti öz şəxsi əmlakları kimi istifadə

edirdilər, çünki Müqavimətdə mərkəzi rol oynayırdılar. Amma mən qırmızıdan fərqli rənglərdə yaylıq geyən partizanları da xatırlayıram.

Gecələr radioya yaxın əyləşib – pəncərələr bağlanırdı, qaranlıqda radio ətrafındakı balaca yer yeganə işıq və ümid mənbəyinə çevrilirdi – mən "Radio London"un partizanlar üçün yaydığı məlumatlara qulaq asırdım. Məlumatlar dumanlı, amma eyni zamanda poetik olurdu ("Günəş yenə də çıxır", "Qızılgül açır"). Əksərən bunlar "Franki üçün ismarıclar" olurdu. Kimsə mənə pıçıldamışdı ki, əfsanəvi igidliyə sahib Franki şimal-qərbi İtaliyada ən güclü gizli şəbəkənin rəhbəri idi. Franki mənim qəhrəmanım idi. Bu Franki (əsl adı – Edqardo Sonyo) monarxist və antikommunist idi; müharibədən sonra sağ ekstremist qruplardan birinə qoşulmuşdu və dövlət çevrilişi ittihamı ilə məhkəməyə verilmişdi. Bu nəyisə dəyişirmi? Sonyo mənim uşaqlıq illərimin oriyentiri olaraq qalır. İtaliyanın azad edilməsi – bütün siyasi rənglərdən olan insanlar üçün ümumi iş idi.

Bu gün həm də deyirlər ki, İtaliyanın azadlığı uğrunda müharibə millətin faciəvi şəkildə ikiyə bölünməsinə gətirib çıxarmışdı və bizə milli barışıq lazımdır. O dəhşətli illər haqqında xatirələri yaddaşlardan sıxışdırıb çıxarmaq, *refoulée, verdrängt* etmək, unutmaq lazımdır. Amma *Verdrängung* nevroz yaradır[viii]. Əgər barışıq – öz savaşını öz bildiyi kimi insafla aparan hər kəsə anlayışla yanaşmaq, mərhəmət və hörmət etmək deməkdirsə, bağışlamaq – heç də unutmaq deyil. Mən hətta qəbul edərəm ki, Eyxman[ix] öz missiyasına vicdanla inanırdı, amma mən ona deyə bilmərəm ki, "oldu! Əvvəlki kimi davam edin." Biz baş verənləri gərək həmişə xatırlayaq və təntənəli şəkildə bəyan edək ki, onlar bunu bir daha edə bilməyəcəklər.

Bəs "onlar" kimdir?

Əgər "onlar" deyəndə II Dünya müharibəsindən əvvəl Avropanı idarə edən totalitar dövlətləri nəzərdə tuturuqsa, onda rahat yatmaq olar. Onlar yeni fərqli tarixi şəraitdə eyni formada qayıda bilməyəcəklər. Mussolini faşizmi xarizmatik lider kultundan, korporativizmdən[x], Romanın güya imperiya taleyi utopiyasından, yeni torpaqlar ələ keçirmək məqsədi güdən imperialist iradədən, daim qızışdırılan millətçilikdən, qara köynək geydirib ölkəni iki-iki sıraya düzməkdən, parlament demokratiyasının inkarından, antisemitizmdən ibarət idi. Ona görə də mən inanıram ki, İtaliya Sosial Hərəkatının qalıqlarından əmələ gələn indiki "Milli Alyans" nə qədər sağ qüvvə olsa da, bizim əvvəlki faşizm ilə bağlı deyil. Mən Avropanın hər yerində, xüsusən də Rusiyada baş qaldıran neofaşist hərəkatlardan nə qədər narahat olsam da, elə eyni məntiqlə düşünürəm ki, alman nasizmi öz ilkin formasında bir daha ümumxalq hərəkatlarına çevrilə bilməyəcək.

Siyasi rejimlər yıxılır, siyasi ideologiyalar isə tənqidə və inkara məruz qalır. Bununla bərabər, hər bir rejim və onun ideologiyasının arxasında yenə də hansısa bir düşüncə tərzi, dünyagörüşü, eləcə də mədəni vərdişlərin, qaranlıq və anlaşılmaz instinktlərin və impulsların məcmusu dayanır. Bu nədən xəbər verir? Avropada yenə də hansısa kabus dolaşmaqdadırmı? (Hələ dünyanın başqa qitələrini demirəm.)

İonesko[xi] deyirdi: "Vacib olan sözlərdir, qalan hər şey boş küydür." Çox zaman linqvistik vərdişlər ifadə oluna bilməyən hisslərin əhəmiyyətli simptomları olur. Ona görə də icazə verin soruşum – niyə yalnız İtaliya Müqaviməti yox, həm də bütün II Dünya müharibəsi faşizm əleyhinə mübarizə kimi səciyyələnir? Axı əslində faşizm ancaq İtaliya ilə assosiasiya edilməlidir. Amma siz Heminqueyin "Əcəl zəngi"ni oxuyanda görəcəksiniz ki, Robert Cordan öz düşmənlərini faşistlər adlandırır, halbuki onlar ispan falangistləri[xii] idi. Ruzveltə[xiii] söz verək: "Amerikan xalqı və onun müttəfiqlərinin qələbəsi faşizm və onun təmsil etdiyi despotizmin ölü əli üzərində qələbə olacaqdır" (23 sentyabr 1944). İspaniyada vətəndaş müharibəsində iştirak edən amerikalıları makkartizm[xiv] zamanında "qeyri-yetkin antifaşistlər" adlandırardılar – yəni 40-cı illərdə Hitlerə qarşı savaşmaq hər bir amerikalının mənəvi borcu idi, amma bir qədər tez, 30-cu illərdə Frankoya qarşı çıxmaq şübhəli əlamətdir, kommunistlərə və digər solçulara məxsusdur. Niyə 30 il sonra Amerikan radikalları onların "dartmaq" vərdişlərini təqdir etməyən polisə "faşist donuzu" deyirdilər? Nə üçün kaqulyar donuzu, falangist donuzu, ustaşi donuzu, kvislinq donuzu, nasist donuzu yox?[xv]

*Mein Kampf*[xvi] bütöv bir siyasi proqramın manifesti idi. Nasizm özündə irqçilik və seçilmiş xalq – ari nəzəriyyələrini, degenerativ incəsənətin dəqiq izahını (entartete Kunst)[xvii], hakimiyyət iradəsinin fəlsəfəsini və üstinsan kultunu ehtiva edirdi. Nasizm qəti olaraq anti-xristian və neopaqanistik idi, necə ki, Stalinin dialektik materializmi (Sovet marksizminin rəsmi versiyası) vulqarcasına materialist və ateist idi. Əgər totalitarizm dedikdə fərdin hər addımının dövlətə və onun ideologiyasına tabe etdirilməsini nəzərdə tuturuqsa, onda həm nasizm, həm də stalinizm əsl totalitar rejimlər idi.

İtaliya faşizmi aydındır ki, diktatura idi, amma o, totalitar deyildi – ona görə yox ki, mülayim idi. Əksinə, bu, onun ideologiyasının fəlsəfi bazasının zəifliyindən irəli gəlirdi. Ümumi rəyin əksinə olaraq deyim ki, İtaliya faşizminin heç bir səciyyəvi fəlsəfəsi yox idi. Trekkani ensiklopediyasında[xviii] Mussolininin imzası ilə çıxan "Faşizm" məqaləsi filosof Covanni Centile tərəfindən yazılmış, ya ilhamlanmışdı, amma hegelçiliyin "mütləq və əxlaqi dövlət" ideyasını əks etdirirdi. Mussolini bu ideyanı heç vaxt tam gerçəkləşdirmədi. Çünki Mussolininin fəlsəfəsi yox idi, ancaq natiqliyi var idi. O, başlanğıcda davakar

allahsız idi, amma sonra Kilsə ilə konkordat bağladı və faşist bayraqlarını xaç suyuna çəkən yepiskopları bağrına basdı. Əfsanəyə görə hələ antiklerikal vaxtlarında o, Allahdan tələb edirdi ki, əgər mövcuddursa onu yerindəcə ildırımla vursun. Sonralar isə Mussolini öz çıxışlarında tez-tez Allahın adını çəkər, özünü isə "səmanın adamı" adlandırardı.

İtaliya faşizmi Avropa ölkəsində hakimiyyətə gələn ilk sağ diktatura idi və bütün sonrakı hərəkatlar Mussolini rejimində özləri üçün ümumi arxetip tapmışdılar. İlk hərbi mərasimləri, məxsusi folkloru İtaliya faşizmi yaratmışdı, öz qara köynəkləri ilə yeni geyim dəbi gətirmişdi – hətta Armani, Benetton və Versaçi xaricdə heç vaxt bu qədər populyar ola bilməyəcək. Yalnız 30-cu illərdə digər faşist hərəkatları baş qaldırmağa başladı – Moslinin[xix] rəhbərliyi altında İngiltərədə; eləcə də Latviyada, Estoniyada, Litvada, Polşada, Macarıstanda, Rumıniyada, Bolqarıstanda, Yunanıstanda, Yuqoslaviyada, İspaniyada, Portuqaliyada, Norveçdə, hətta Cənubi Amerikada. Məhz İtaliya faşizmi Avropanın bir çox liberal liderlərini inandırmışdı ki, yeni rejim maraqlı sosial islahatlar keçirir və kommunizm təhlükəsinin qarşısını çıxacaq mötədil inqilabi alternativ təklif edir.

Bununla belə, bu yeganə arqument – tarixi birincilik – mənin fikrimcə "faşizm" sözünün sinekdoxaya çevrilməsini, ən fərqli totalitar hərəkatları tərif etmək üçün ***pars pro toto*** olmasını izah etməyə yetərli deyil[xx]. İtaliya faşizmi özündən sonrakı totalitar idarəçilik formalarının bütün elementlərini, kvintessensiyasını[xxi] ehtiva edən fenomen deyildi. Əksinə, faşizmdə heç bir kvintessensiya yox idi. Məntiq elminin dili ilə desək, faşizm qeyri-səlis totalitarizm idi – müxtəlif fəlsəfi və siyasi ideyaların kollajı, ziddiyətlərin arı yuvası. İnqilabla monarxiyanı birləşdirən, Kral ordusu ilə Mussolini milisinin birgə mövcud olduğu, Kilsəyə imtiyazlar verib zorakılıq təbliğ edən sekulyar məktəb sistemi quran, total dövlət nəzarəti ilə azad bazarı calaq edən bir hərəkatı təsəvvür edə bilirsinizmi? Faşist partiyası yeni inqilabi düzən gətirməklə lovğalanırdı, amma onu ən mühafizəkar və əksinqilabçı iri torpaq sahibləri maliyələşdirirdi. Başlanğıcda faşizm respublikaçı hərəkat idi, amma sonra öz mövcudluğunun iyirmi ilini kral ailəsinə sədaqətini izhar etməklə keçirdi; Duçe kralla əl-ələ hərəkət edir, ona hətta İmperator titulu təklif edirdi. Kral 1943-cü ildə Mussolinini istefaya göndərəndə isə partiya almanların dəstəyi ilə iki aya yenidən peyda olur – bu dəfə "sosial respublika" bayrağı altında, Yakobin motivlərlə bəzədilmiş köhnə inqilabi ssenarisi ilə.

Alman faşizminin yalnız bir memarlığı və bir faşist incəsənəti mövcud idi. Əgər Albert Şpeyer alman faşizminin memarı olurdusa, Mis van der Roeyə Almaniyada yer qalmırdı. Stalin zamanında olduğu kimi: Lamark həqiqət idisə, Darvin üçün yer yox idi. İtaliyada isə

əksinə, memarlar özlərini faşist hesab etsələr də, psevdokolizeylər tikməklə yanaşı Qropiusun modernrasionalizmindən ilhamlanaraq yenilikçi binalar da inşa edirdilər[xxii].

İtaliya faşizminin sərt mədəni siyasət formalaşdıracaq öz Jdanovu[xxiii] yox idi. İtaliyada incəsənət sahəsində iki mükafat var idi. Kremona mükafatı fanatik və cahil faşist Roberto Farinaççinin nəzarətində idi. O, incəsənəti propaqanda kimi görürdü (mən belə rəsm əsərlərini xatırlayıram – "Radioda Duçenin çıxına qulaq asarkən"və ya "Faşizmin yaratdığı düşüncə halı"). Berqamo mükafatını isə savadlı və kifayət qədər tolerant faşist Cüzeppe Bottai maliyyələşdirirdi – o isə həm "sənət sənət üçündür" konsepsiyasını, həm də Almaniyada pozğun və kripto-kommunist kimi damğalanacaq avanqardı himayə edirdi.

Bizim milli şairimiz D'Annunsio[xxiv] sayılırdı. Bu dendini[xxv] Almaniya və Rusiyada dərhal güllələyərdilər. İtaliyada isə millətçiliyi və qəhrəmanlıq kultuna görə onu rejimin saray şairi elan etmişdilər. (Hərçənd yaradıcılığında ifrat fransız dekadentliyi də var idi.)

Məsələn, futurizmi götürək. O da ekspressionizm, kubizm, sürrealizm ilə yanaşı "degenerativ incəsənət" sayılmalı idi. Amma ilk italiyalı futuristlər millətçi idilər, estetik səbəblərdən İtaliyanın I Dünya müharibəsində iştirakını dəstəkləyirdilər, faşist gəncliyin kultuna da daxil olan sürət, zorakılıq və riski alqışlayırdılar. Faşizm Roma İmperiyasını və kənd ənənələrini yenidən kəşf etdiyi bir məqamda avtomobili Samofrakiyalı Nikadan[xxvi] üstün sayan və ay işığını məhv etmək istəyən Martinetti[xxvii] ay işığına etirazı olmayan Elmlər Akademiyasına üzv seçilmişdi.

Bir çox partizanlar və solçu intellektuallar universitetlərdəki faşist özəklərində yetişmişdilər. Halbuki bu özəklər yeni faşist kültürünün beşiyi kimi yaradılmışdı. Bu klublar həqiqətdə intellektual ideyaların qaynadığı ümumi qazanı xatırladırdı və orada heç vaxt ciddi ideoloji nəzarət olmamışdı – ona görə yox ki, partiya radikal fikirlərə qarşı tolerant idi, sadəcə tələbələrə nəzarət etmək üçün faşistlərin yetərli intellektual səviyyələri çatmırdı.

Bütün bu iyirmi il ərzində *ermetiçi* cərəyanından Montale[xxviii] və digər şairlərin yaradıcılığı hakim elitanın dəbdəbəli üslubuna tam əks formada inkişaf edirdi. Ermetiçilərə fil dişindən qüllələrində oturub öz ədəbi etirazlarını bildirməyə imkan yaradılmışdı. Onların əhval-ruhiyyəsi faşizmin optimizm və qəhrəmanlıq kultuna zidd olsa da, rejim onların aşkar, lakin anlaşılmaz fərqli-fikirliliyinə dözürdü. Çünki faşistlər dumanlı ifadələrə çox da fikir vermirdilər.

Bütün bunlar qətiyyən İtaliya faşizminin dözümlü olmasını göstərmir. Faşistlər Qramşini[xxix] ölümünə qədər həbsdə saxladılar, Cakomo Matteottini və Roselli

qardaşlarını[xxx] qətlə yetirdilər, söz azadlığını boğdular, həmkarlar ittifaqlarını buraxdılar, siyasi dissidentləri ucqar adalara sürgün etdilər. Qanunverici hakimiyyət təmiz fiksiyaya çevrildi, icra hakimiyyəti həm mətbuata, həm də məhkəmələrə nəzarət edirdi, özü yeni qanunlar qəbul edirdi. Bu qanunların içində ali irqin qorunması haqqında qanun da var idi – İtaliya bu yolla yəhudilərin soyqırımına öz formal dəstəyini vermişdi.

Mənim təsvir etdiyim ziddiyyətli səhnələr dözümlülüyün deyil, siyasi və ideoloji dolaşıqlığın nəticəsi kimi meydana gəlmişdi. Amma bu, səliqəli dolaşıqlıq, strukturlu dağınıqlıq idi. Faşizmin fəlsəfi özəyi olmasa da, emosional baxımdan o, bir sıra arxetipik bünövrələrə bağlı idi.

Beləliklə, biz söhbətin ikinci hissəsinə gəlib çatdıq. Alman nasizmi unikal idi. Biz Frankonun hiper-katolik falangizmini nasizm adlandıra bilmərik, çünki nasizm öz dərin bütpərəstliyi, politeizmi və anti-xristianlığı ilə seçilirdi - əks halda o, nasizm olmazdı. Amma faşizm termini ilə fərqli ladlarda oynamaq olur. “Faşizm” sözünün başına gələnlər Vitgenşteynin[xxxi] fikrincə “oyun” sözünün başına gələnlərlə oxşardır. Oyun həm yarışma tipində ola bilər, həm də yox; bir insan və ya bir neçə insan tərəfindən oynanıla bilər; bilik və bacarıq tələb edə də bilər, etməyə də; pul üçün oynanıla bilər, ya da havayı. Oyunlar – müxtəlif növ fəaliyyətlərin seriyası olub aralarındakı oxşarlıq çox nisbidir.

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| abc | bcd | cde | def |

Fərz edək ki, qarşımızda siyasi qruplaşmaların seçimi var. Birinci qruplaşma ***abc***, ikinci qruplaşma ***bcd***, üçüncü qruplaşma ***cde***, dördüncü qruplaşma isə ***def*** xarakterlərinə sahibdir. İkinci qruplaşma birinciyə bənzəyir, çünki iki oxşar xüsusiyyəti var. Eyni səbəbdən dördüncü üçüncüyə, üçüncü də ikinciyə bənzəyir. Üçüncü qruplaşma birinciyə də bənzəyir – onların bir ortaq xüsusiyyəti var. Amma burada maraqlı bir hal da var. Dördüncü qruplaşma üçüncü və ikinciyə bənzəsə də, birinci qruplaşma ilə heç bir oxşar xüsusiyyəti yoxdur. Bununla belə, birinci qruplaşmadan dördüncü qruplaşmaya keçidin davamlılığı və hamarlığı səbəbindən birinci və dördüncü qruplaşmalar arasında oxşarlıq illüziyası yaranır.

“Faşizm” termini ona görə hər yerdə işlənir ki, İtaliya faşizmindən bir və ya bir neçə xüsusiyyəti çıxsaq, o, yenə də faşizm olaraq qalacaq. İtaliya faşizmindən imperializmi

çıxsaq Franko ya Salazar[xxxii] alınacaq. Kolonializmi çıxsaq – Balkan faşizmi. Radikal antikapitalizmi əlavə etsək Ezra Paundu[xxxiii] görürük. Kelt mifologiyası və Qraal kultunu[xxxiv] əlavə etsək - ən hörmətli faşist quru Yulius Evola[xxxv] alınır.

Amma bütün bu qeyri-səlisliyə baxmayaraq, məncə əbədi faşizmin – mən onu ur-faşizm adlandırıram – səciyyəvi xüsusiyyətlərini müəyyən etmək mümkündür. Bu xüsusiyyətlər sistematik deyil; bir çoxu bir-birinə ziddir; bəziləri həm də digər despotizm və fanatizm növlərinin xarakterik atributudur. Lakin bu xüsusiyyətlərdən birinin olması kifayətdir ki, onun ətrafında faşizm dumanlığı qatılaşmağa başlasın.

1. Ur-faşizmin ilk xüsusiyyəti ***ənənələr kultudur***. Əslində tradisionalizm - ənənəçilik faşizmdən daha qədimdir. O, hələ Fransa inqilabından sonra dominant olan əksinqilabi katolik düşüncənin xüsusiyyəti idi, amma kökləri qədim Yunanıstana qədər uzanır.

   Tradisionalizm klassik yunan rasionalizminə cavab olaraq son ellin dövründə ortaya çıxmışdı. Aralıq dənizi hövzəsinin müxtəlif dinlərdən olan xalqları bəşəriyyətin erkən çağlarında göndərilən vəhyləri axtarırdı. Ənənəçi mistisizmə görə ta qədim zamanlardan bu vəhylər unudulmuş dillərin altında – Misir heroqliflərində, Kelt runlarında, Ön Asiya dinlərinin əlyazmalarında gizlənirdi. Bu yeni kültür qaçılmaz olaraq sinkretik idi. ***Sinkretizm*** – lüğətlərin dediyi kimi sadəcə inanc və təcrübələrin müxtəlif formalarının birləşməsi deyil. Belə birləşmədə əsas olan xüsusiyyət mövcud ziddiyətlərin nümayişkəranə inkarı, onlara məhəl qoyulmamasıdır. Bütün ismarıclar hansısa müdrikliyi ehtiva edir və əgər onların bəziləri bir-birinə zidd gəlirsə, ya uyğun deyilsə, bunun heç bir qorxusu yoxdur. Çünki onların hamısı ilkin vəhylərdəki başlanğıc həqiqətə allüziya edir, onun alleqoriyası, surətidir.

   Buradan ortaya çıxan digər vacib nəticə odur ki, ***elm və biliklərin inkişafı da mümkün deyil***. Həqiqət artıq bir dəfə və əbədilik bəyan edilib. Onun dumanlı mətnini sadəcə şərh etmək lazımdır. İstənilən faşist hərəkatın universitet proqramına baxsaq tradisionalist mütəfəkkirləri görərik. Nasizmin qnozisi – "ruhani bilikləri" tradisionalist, sinkretik, okkult mənbələrdən qidalanırdı. Yeni İtaliya sağlarının ən əhəmiyyətli nəzəri mənbəyi Yulius Evola əlkimyanı "Müqəddəs Roman İmperiyası" ilə, Qraalı isə "Sion müdriklərinin protokolları" ilə qarışdırır. Dünyagörüşlərinin genişliyini sübut etmək üçün İtaliya sağlarının bir qisminin son zamanlar Jozef de Mestr[xxxvi], Genon[xxxvii] və hətta Qramşiyə apelyasiyası faktı özü müthiş sinkretizm nümunəsidir. Amerikan kitab dükanlarının "Yeni Əsr"

sərlövhəli rəflərinə baxsanız, orada hətta Müqəddəs Avqustini[xxxviii] də tapa bilərsiniz. Mən bildiyim qədəri ilə Avqustin faşist olmayıb, ancaq Avqustinlə Stonheci[xxxix] bir araya gətirmək – bu, artıq ur-faşizmin simptomudur.

2. Ənənəçilik qaçılmaz olaraq ***modernizmin rədd edilməsi, inkarı*** ilə nəticələnir. Həm italyan faşistləri, həm də alman nasistləri ilk baxışdan texnikaya valeh idilər; tradisionalist mütəfəkkirlər isə daim texnikanı lənətləyir, onda mənəvi dəyərlərin inkarını görürdülər. Əslində nasizm də öz sənayeləşməsinin ancaq zahiri əlamətləri ilə fəxr edirdi. Onun ideologiyasının dərinliyində ***Blut und Boden*** – qan və torpaq nəzəriyyəsi yatırdı. Müasir dünyanın inkarı kapitalizm gerçəkliyinin inkarı kimi təqdim edilirdi. Bu, həm də 1789 ruhunun – maarifçilik ruhunun inkarı idi. Ağıl əsri – rasionalizm dövrü müasir pozğunluğun başlanğıcı kimi görülürdü. Ona görə də ur-faşizm həm də irrasionalizm kimi görülə bilər.

3. İrrasionalizm ***"hərəkət naminə hərəkət"*** kultu ilə sıx bağlıdır. Hərəkət özü özlüyündə gözəldir, ona görə də düşünmədən və düşüncə xaricində həyata keçirilir. Düşünmək – cəsarətsiz işdir. Mədəniyyət – tənqidi münasibətin potensial daşıyıcısı kimi şübhə ilə qarşılanır. İntellektual dünyaya inamsızlıq hər zaman ur-faşizmin simptomu olub. Gerinqin[xl] məşhur deyimindən ("Hər dəfə mədəniyyət sözünü eşidəndə pistoletə əl atıram") tutmuş "pozğun intellektuallar", "yumurtabaşlar", "əziz-avara snoblar", "universitetlər – qırmızıların yuvası" kimi – hamısının səbəbi budur. Rəsmi faşist intellektuallarının əsas işi müasir mədəniyyəti və liberal intellektualları çoxəsrlik dəyərlərdən qopmaqda ittiham etmək idi.

4. Sinkretizmin heç bir forması analitik tənqidə dözümlü deyil. Tənqidi ruh fərqləndirir, fərqləndirmək isə modernizmin əlamətidir. Müasir mədəniyyətdə elm icması elmin inkişafının yolu kimi mübahisələri, fərqli-fikirliliyi alqışlayır, ur-faşizm üçün isə ***razılaşmamaq*** – xəyanət etməkdir.

5. Razılaşmamaq həm də müxtəlifliyin əlamətidir. Ur-faşizm fərqlilikdən doğan təbii qorxuları şişirtmək və istismar etməklə güclənir və konsensuslar yaradır. Faşist hərəkatların, hələ qeyri-yetkin faşizmin ən birinci şüarı yadlara qarşı ünvanlanır. Beləliklə, ur-faşizm mahiyyət olaraq ***irqçidir***.

6. Ur-faşizm ***fərdi və ya sosial frustrasiyadan*** – iflasdan doğur. Ona görə də bütün tarixi faşist hərəkatlarının əsas dayağı xəyal qırıqlığı yaşayan, pərişan orta sinif – iqtisadi və ya siyasi böhran nəticəsində zərər görmüş qüvvələr, qıcıqlanmış aşağıların qarşısında qorxu keçirən yuxarılar idi. Bizim zamanımızda – köhnə işçi

sinfinin xırda burjuaziyaya çevrildiyi, lümpenlərin isə siyasi səhnədən kənarlaşdırıldığı məqamda gələcəyin faşizmi bu yeni çoxluqda özünə auditoriya tapacaq.

7. Aydın sosial kimlikdən məhrum insanlara ur-faşizm deyir ki, onların yeganə imtiyazı müəyyən bir ölkədə anadan olmalarıdır. ***Millətçilik*** belə yaranır. Bundan əlavə, millətə kimlik verə bilən yeganə qüvvə onun düşmənləridir. Ona görə də ur-faşizm psixologiyasının əsasında qəsd nəzəriyyələrinə möhkəm bağlılıq yatır. Bu qəsd beynəlxalq mahiyyətli olsa daha yaxşıdır. Faşizmin ardıcılları özünü mühasirədə hiss etməlidir. Bu qəsdi həll etməyin, gizli planları pozmağın ən asan yolu ksenofobiyaya çağırışdır. Amma ölkənin daxilində də qəsdlər olmalıdır: yəhudilər adətən belə qəsd nəzəriyyələrinin obyekti olur, çünki onlar həm yerli, həm də əcnəbidirlər.

8. Faşizmin ardıcılları öz düşmənlərinin gücü və zənginliyinin zahiri nümayişi ilə təhqir olunmalıdır, özünü aşağılanmış hiss etməlidir. Uşaqlığımda məni öyrədirdilər ki, ingilislər gündə beş dəfə xörək yeyir və bu, kasıb, ancaq ayıq italiyalıların yeməyindən çoxdur. Yəhudilər varlıdır və biri-birinə gizli şəbəkələri vasitəsilə dayaq olurlar. Amma ardıcıllar həm də inanmalıdırlar ki, onlar düşmənlərinə qalib gələcəklər. Ur-faşizm vurğunu tez-tez dəyişməklə düşmənləri gah güclü, gah da zəif təsvir edir. Faşist hökumətləri müharibələri həmişə uduzmağa məhkumdurlar, çünki düşmənin gücünü obyektiv dəyərləndirmək qabiliyyətində deyillər.

9. Ur-faşizm üçün həyat uğrunda mübarizə yoxdur, həyat – mübarizə üçün mövcuddur. Deməli, pasifizm – düşmənlə əlbir olmaqdır. Pasifizm pisdir, çünki ***həyat permanent müharibədir***. Bu da "Qiyamət günü kompleksi" doğurur. Düşmənlər məğlub edilməlidir, deməli yekun döyüş olmalıdır. Yekun döyüşdən sonra hərəkat bütün dünyanı nəzarət altına alacaq. Amma bu formada "yekun həll" əbədi sülh dövrü - Qızıl Çağın gələcəyini ehtiva etdiyindən permanent müharibə prinsipinə ziddir. Heç bir faşist lideri bu paradoksu həll etmək iqtidarında olmayıb.

10. Əgər mürtəce ideologiya fundamental olaraq aristokratiyadan qaynaqlanırsa, onun bir xüsusiyyəti də elitizmdir. Tarix boyu aristokratik və militarist elitizmin bütün formaları ***zəif olana qarşı nifrət*** aşılayıb. Ur-faşizm də ***populist elitizmi*** təbliğ etmədən mövcud ola bilməz. Hər bir fərd dünyanın ən yaxşı xalqına daxildir, partiya üzvləri ən yaxşı vətəndaşlardır və bütün vətəndaşlar partiya üzvü ola bilər (yaxud olmalıdır). Amma plebeylər olmadan patrisilər də olmur. Rəhbər öz

hakimiyyətini demokratik yolla almadığını, güclə zəbt etdiyini yaxşı bilir; o, həm də bilir ki, hakimiyyətinin mənbəyi xalq kütlələrinin zəifliyidir və xalq o qədər zəifdir ki, ağaya ehtiyacı var. Bu hakimiyyət də hərbi sistemdə olduğu kimi iyerarxik formada təşkil olunduğundan, hər bilvasitə rəhbər öz tabeliyindəkilərə xor baxır, onlar da öz növbəsində daha aşağılara nifrət edirlər. Bütün bu "aşağı baxmalar" sistemdə kütləvi elitizmi bərqərar edir.

11. Hamı və hər kəs qəhrəman kimi yetişdirilir. Bütün mifologiyalarda qəhrəmanlıq istisna hallardır, ur-faşizm ideologiyasında isə qəhrəmanlıq normadır. ***Qəhrəmanlıq kultu*** ölüm kultu ilə sıx bağlıdır. Falangistlərin şüarının *Viva la Muerte!* (Yaşasın ölüm!) olması təsadüfi deyildi. Qeyri-faşist cəmiyyətlərdə, obıvatellərə aşılanır ki, ölüm – xoş olmayan, amma qaçılmaz perspektivdir, onu ləyaqətlə qarşılamaq lazımdır; dindarlar üçün ölüm – fövqəltəbii xoşbəxtliyə nail olmağın əzablı yoludur. Ur-faşist qəhrəman isə, əksinə, qəhrəmancasına ölməyə can atır. Qəhrəman ölümü qəhrəman həyatının ən yaxşı mükafatıdır. Ur-faşist qəhrəman ölmək üçün səbirsizlik göstərir və bu səbirsizlikdə tez-tez digər insanları öz əvəzinə ölümə göndərir.

12. Həm permanent müharibə, həm də qəhrəmanlıq çətin oyunlar olduğundan ur-faşizm öz hakimiyyət hərisliyini seksual münasibətlərə proyeksiya edir. ***Machismo*** - kişilik kultu buradan qaynaqlanır. Kişilik kultu həm də qadınların aşağılanması, bakirlikdən homoseksuallığa kimi bütün qeyri-ənənəvi cinsi vərdişlərin təqibi deməkdir. Seks özü də çətin oyun olduğundan ur-faşist qəhrəman ifrat dərəcədə silahlara meyl salır. Bu silahlar ***fallosun erzatsıdır***[xli]. Ur-faşist qəhrəmanın müharibə oyunları onun permanent ***penis həsədinin*** nəticəsidir.

13. Ur-faşizm selektiv populizmə – ya da ***keyfiyyət populizminə*** əsaslanır. Demokratik ölkədə vətəndaşların fərdi hüquqları var, amma vətəndaşların cəm halında siyasi təsiri ancaq kəmiyyət nöqteyi-nəzərindən olur – azlıq çoxluğun qərarlarına tabedir. Ur-faşizm isə fərdlərin heç bir hüququnu qəbul etmir və xalqı kəmiyyət yox, keyfiyyət olaraq görür. Xalq – Ümumi İradəni ifadə edən monolit varlıqdır. Gerçəklikdə böyük insan qruplarının ümumi iradə ifadə etməsi mümkün olmadığından, güya Rəhbər özü xalqın ümumi iradəsini interpretasiya edir. Vəkalət etmək hüququndan məhrum olan vətəndaşlar heç bir fəaliyyət göstərə bilmirlər. Onları yalnız Xalq rolunu oynamağa çağırırlar. Beləliklə, Xalq – teatr rekvizitinə çevrilir. Keyfiyyət populizmi üçün artıq Nürnberq stadionuna, ya da Romanın mərkəzi meydanına ehtiyac qalmır. Yaxın gələcəyin keyfiyyət populizmi televiziya

və İnternetdədir. Bir qrup vətəndaşın emosional davranışını çox rahatlıqla Xalqın Səsi olaraq təqdim etmək və qəbul etmək olacaq.

Məhz öz keyfiyyət populizmi səbəbindən ur-faşizm həmişə "çürük" parlament demokratiyasına qarşı çıxmalıdır. "Mən bu boz və mənasız yeri öz cavanlarım üçün təlim düşərgəsi edərdim" – Mussolininin İtaliya parlamentində işlətdiyi ilk cümlələrdən biri bu idi.  Sonralar Mussolini öz cavanlarına daha yaxşı yer tapsa da, parlamenti yenə də ləğv etdi. Siyasətçi parlamentin legitimliyini şübhə altına qoyub, onun güya xalqın səsini təmsil etmədiyini iddia edəndə, bilin ki, ur-faşizmin quyruğu görünür.

14. Ur-faşizm Yenidildə danışır. Yenidil – Corc Orvell tərəfindən "1984" romanında ingsosun – ingilis sosializmin dili kimi uydurulub, amma urfaşizmin elementləri fərqli diktatura formaları üçün ortaqdır. Bütün nasist və faşist dərslikləri kasıb söz ehtiyatından, elementar sintaktikadan istifadə edirdilər. Məqsəd – mürəkkəb və tənqidi düşüncəyə imkan yaradan alətləri məhdudlaşdırmaq idi. Yenidilin yeni növləri populyar tok-şouların məsum formasını alsalar da, biz onları müəyyən etməyə həmişə hazır olmalıyıq.

Beləliklə, ur-faşizmin fərqli arxetiplərini sadalayıb bitirdikdən sonra sizə əvvəldə söz verdiyim əhvalatı danışım.

1943-cü ilin 27 iyul səhəri mənə dedilər ki, radioya görə faşizm süqut edib və Mussolini həbs olunub. Anam məni qəzet almağa göndərdi. Ən yaxın köşkdə gördüyüm qəzetlərin adları fərqli və yeni idi. Başlıqları gördükdən sonra isə anladım ki, onlar hamısı müxtəlif şeylər yazıblar. Mən təsadüfi bir qəzet aldım və ilk səhifəsinə baxdım – orada beş ya altı partiyanın imzaladığı bəyanatın mətni var idi. Onların arasında Xristian partiyası, Kommunist partiyası, Sosialist partiyası, Fəaliyyət partiyası və Liberal partiya var idi. O məqama qədər mən düşünürdüm ki, dünyada hər ölkədə ancaq bir partiya var və İtaliyada bu, Milli Faşist Partiyasıdır. Mən öz ölkəmdə eyni vaxtda bu qədər fərqli partiyanın olmasının mümkünlüyünü kəşf edirdim. Bundan başqa, mən ağıllı oğlan olduğumdan dərhal anladım ki, bu partiyalar bir gecəyə yarana bilməz. Deməli, onlar əvvəllər də, amma gizli mövcud olub.

Bəyanat diktaturanın sonu və azadlıqların qayıtmasını elan edirdi – söz azadlığı, mətbuat azadlığı, siyasi birləşmə azadlığı. Aman allah, mən "azadlıq" və "diktatura" sözlərini hələ ömrümdə oxumamışdım. Bu sözlərin təsiri ilə mən azad Qərb insanı kimi yenidən doğuldum.

Biz ona nail olmalıyıq ki, bu sözlərin mənası bir də heç zaman unudulmasın. Ur-faşizm hələ də mülki geyimlərdə bizim ətrafımızdadır. Əgər kimsə dünyaya üzünü tutub desəydi ki, "mən Osvensimi[xlii] yenidən açmaq istəyirəm, Qaraköynəklilərin İtaliya küçələrində paradını keçirmək istəyirəm", bunun qarşısını almaq bizim üçün çox asan olardı. Amma həyat o qədər də sadə deyil. Ur-faşizm təğyiri-libas olub yenidən qayıda bilər. Bizim borcumuz hər gün dünyanın hər yerində onun maskasını yırtmaq və yeni formalarını ifşa etməkdir. Mən bir daha Ruzveltə sözü verirəm: "Mən cürət edib deyirəm ki, əgər Amerika demokratiyası canlı qüvvə kimi tərəqqi etməkdən, öz vətəndaşlarının şəraitini dinc vasitələrlə, gecə və gündüz yaxşılaşdırmaq vaz keçsəydi, bizim ölkəmizdə faşizm boy atardı" (4 noyabr 1938). Azadlıq və azad olmaq – intəhasız tapşırıqdır, sonu olmayan missiyadır. Qoy bizim şüarımız da elə bu olsun: "Heç zaman unutma."

Və sonda mən Franko Fortininin[xliii] bir şeiri ilə yekunlaşdırmaq istəyirəm:

*Körpülərin sürahilərində*

*Edam edilənlərin kəllələri*

*Fəvvarələrin sularında*

*Edam edilənlərin tüpürcəkləri.*

*Bazar meydanının daş döşəməsində*

*Güllələnən insanların dırnaqları*

*Çəmənliyin quru çayırlarında*

*Güllələnən insanlarınn dişləri.*

*Havanı dişləyən, daşları dişləyən*

*Bizim bədənimiz artıq insan bədəni deyil*

*Havanı dişləyən, daşları dişləyən*

*Bizim ürəyimiz artıq insan ürəyi deyil.*

*Amma biz ölənlərin gözlərini oxuduq*

*Azadlığı bu torpağa gətirəcəyik*

*Və ölənlərin yumruğunda möhkəm sıxılmış*

*Ədaləti bu torpağa gətirəcəyik.*

---

[i] **Benito Mussolini** – italyan faşizminin lideri, ölkənin diktatoru (1922-1943), Duçe.

[ii] **Karabiner** – İtaliyada hərbi polis, jandarm.

[iii] **Pyetro Badolyo** (Pietro Badoglio; 1871—1956) — italyan marşalı, 1943-cü ildə Mussolininin devrilməsindən sonra İtaliyanın baş naziri.

[iv] **Dick Tracy** və **Li'l Abner** – ABŞ-da dərc olunan populyar komikslər.

[v] İtaliyada faşistlər qara köynək geyirdilər, buna görə də onları “qaraköynəklilər” adlandırırdılar.

[vi] “Bəli, çox sağ olun, madam, mən də şampan şərabını çox sevirəm…” (fransızca).

[vii] **Réseau** – fransızca “şəbəkə”; **maquis** – maki, fransız partizanı; **armée secrete** – fransızca “gizli ordu”, Belçikada faşistlərə qarşı müqavimət hərəkatı; **Rote Kapelle** – almanca “Qırmızı orkestr”, Avropa ölkələrində fəaliyyət göstərən müstəqil müqavimət qruplarına Gestapo tərəfindən verilən ad; **Varşava gettosu** – nasistlərin Avropada yaratdıqları yəhudi gettolarının ən böyüyü.

[viii] **Verdrängung** və ondan yaranmış **refoulée, verdrängt** – sıxışdırma, şüurdan nəyinsə bilərəkdən sıxışdırılıb çıxarılması, psixoanalizin terminləridir.

[ix] **Adolf Eyxman** (Otto Adolf Eichman; 1906-1962) - alman zabiti, Gestaponun əməkdaşı, yəhudilərin soyqırımına görə məsuliyyət daşıyan əsas şəxslərdən biri.

[x] **Korporativizm** – cəmiyyətin əsas özəyini fərdlərin yox, sosial qrupların təşkil etdiyini iddia edən siyasi nəzəriyyə. Faşistlər tərəfindən individualizmə və sinfi mübarizəyə qarşı qoyulurdu.

[xi] **Ejen İonesko** (Eugène Ionesco; 1909-1994) - rumın mənşəli fransız dramaturqu, absurd teatrın banilərindən biri.

[xii] **Falangistlər** – ispan faşistləri, İspaniya vətəndaş müharibəsində general Frankonun əsas tərəfdarları, 1933-cü ildə Primo de Rivyera tərəfindən yaradılmış və Franko dövründə İspaniyada hakim partiya olan İspan Falangasının adından götürülür.

[xiii] ABŞ Prezidenti **Franklin Delano Ruzvelt**.

[xiv] **Makkartizm** – XX əsrin 40-cı və 50-ci illərində ABŞ-da mövcud olmuş antikommunist siyasi hərəkat; kommunistləri və fərqli düşünənləri təqib edən Senator Cozef Makkartinin adından meydana gəlib.

[xv] **Kaqulyar** – fransız faşisti; **ustaşi** – xorvat faşisti; **kvislinq** – norveç faşisti.

[xvi] **Mein Kampf** – almanca “Mənim mübarizəm”, Adolf Hitlerin 1925 və 1926-cı illərdə çap etdiyi yarı-avtobioqrafik kitab, alman nasizminin proqram sənədi.

[xvii] **Degenerativ incəsənət** (entartete Kunst) – nasist təbliğatının avanqard və digər modernist incəsənət sahələrinə verdikləri ad; belə incəsənət alman xalqı və ari irqinə qarşı hesab edilirdi.

[xviii] **Trekkani ensiklopediyası** – İtaliyanın milli ensiklopediyası

[xix] **Osvald Mosli** (Sir Oswald Mosley; 1896–1980) - ingilis siyasətçisi, Britaniya Faşist İttifaqının banisi və rəhbəri

[xx] **Sinekdoxa** və ya **pars pro toto** – hansısa bütöv fenomenə onun bir hissəsinin adının verilməsi, məsələn, həm nasist, həm faşist, həm falangist, həm də digər oxşar hərəkatlara sadəcə "faşizm" adının verilməsi.

[xxi] Kvintessensiya – mahiyyət, təmiz substansiya, ən ideal model, nümunə.

[xxii] **Albert Şpeyer** (Albert Speer) – Hitlerin şəxsi memarı; **Lüdviq Mis van der Roe** (Ludwig Mies van der Rohe) və **Valter Qropius** (Walter Gropius) – XX əsr modernist alman memarları, Bauhaus məktəbinin yaradıcıları və rəhbərləri; **Jan-Batist Lamark** (Jean-Baptiste Lamarck**)** – fransız təbiətşünası, təkamül nəzəriyyəsinin ilk müəlliflərindən biri (lamarkizm); Çarlz Darvin (Charles Darwin) – ingilis təbiətşünası, təkamül nəzəriyyəsinin müəlliflərindən biri (darvinizm).

[xxiii] **Andrey Jdanov** (1896-1948) – sovet dövlət və partiya xadimi, general-polkovnik, sosializm realizmi, fəlsəfə və "ideoloji cəbhə" üzrə məsul sovet məmurlarından biri.

[xxiv] **Qabriele D'Annunsio** (Gabriele D'Annunzio; 1863-1938) – italyan yazıçı, şair, dramaturq, dövlət xadimi

[xxv] **Dendi** – özünü aristokratlara bənzətmək üçün xarici görkəminə, danışığına, hərəkətlərinə həddən artıq diqqət ayıran şəxs, XIX əsrdə geniş yayılmış sosial tip. Müasir analoqu – metroseksual.

[xxvi] **Samofrakiyalı Nika** – Qələbə ilahəsi Nikanı təmsil edən qədim yunan heykəli, hazırda Luvrda saxlanılır.

[xxvii] **Pyero Martinetti** (Piero Martinetti; 1872 – 1943) - italyan filosofu

[xxviii] **Eucenio Montale** (Eugenio Montale; 1896—1981) - italyan şairi, 1975-ci il ədəbiyyat üzrə Nobel mükafatı laureatı

[xxix] **Antonio Qramşi** (Antonio Gramsci; 1891–1937) italyan yazıçı, siyasi nəzəriyyəçi, filosof, sosioloq və dilçi. İtaliya Kommunist Partiyasının yaradıcılarından biri.

[xxx] **Cakomo Matteotti** (Giacomo Matteotti; 1885–1924) - italyan siyasətçi, sosialist. 1924-cü ilin mayında parlamentdə faşizmi ifşa edən nitqindən sonra oğrulanıb və öldürülüb. **Karlo və Nello Rosselli qardaşları** – italyan sosialistləri, tarixçi və siyasətçilər. 1937-ci ilin iyununda Mussolinin göstərişi ilə fransız faşistləri tərəfindən qətl olunublar.

[xxxi] **Lüdviq Vitgenşteyn** (Ludwig Wittgenstein; 1889–1951) Avstriya filosofu, daha çox məntiq, riyaziyyatın fəlsəfəsi və dil üzrəində araşdırma aparıb.

[xxxii] **Antoniu di Oliveyra Salazar** (António de Oliveira Salazar; 1889—1970) — portuqal dövlət və siyasi xadimi, 1932-1968-ci illərdə Portuqaliyanın diktatoru.

[xxxiii] **Ezra Paund** (Ezra Pound; 1885–972) - amerikan şairi, uzun müddət İtaliyada yaşayıb. Müharibə zamanı Mussolini rejimi və faşizmi müdafiə edirdi.

[xxxiv] **Müqəddəs Qraal** – ilk öncə Kral Artur əfsanələri ilə bağlı olan müqəddəs yemək qabı, daha sonra – xristianlıqda İsa Məsihin son naharında işlənən  və ya İsanın qanının toplandığı qab.

[xxxv] **Yulius Evola** (Julius Evola - əsl adı Baron Giulio Cesare Andrea Evola; 1898–1974) - italyan mühafizəkar filosofu və ezoteriki, İtaliyada yeni sağların mənəvi atası. Sağlığında İtalyan faşizminin tənqidçilərindən idi.

[xxxvi] **Cozef de Mestr** (Joseph de Maistre; 1753–1821) - İtaliyanın Savoya əyalətindən yazıçı, filosof və diplomat, əks-maarifçiliyin əhəmiyyətli fiqurlarından biri, monarxiya və papalığın tərəfdarı

[xxxvii] **Renen Genon** və ya **Şeyx Əbdülvahid Yəhya** (René Guénon; 1886–1951) - fransız intellektualı, metafizika, tradisionalizm sahəsində məşhur filosof

[xxxviii] **Müqəddəs Avqustin** (Aurelius Augustinus Hipponensis; 354–430) — xristian ilahiyyatçısı, neoplatonik, filosof-mistik, "Kilsə atası"

[xxxix] **Stounhec** (Stonehedge) – İngiltərədə neolit və bürünc dövrünə aid tarixi abidə, haqqında mistik əhvalatlar dolaşmaqdadır.

[xl] **Herman Gering** (Hermann Göring; 1893–1946) - alman siyasətçi, Nasist partiyasının banilərindən və rəhbərlərindən biri, Gestaponun yaradıcısı.

[xli] **Erzats** (almanca *erzatz*) – nəyinsə əvəzləyicisi, imitasiyası, daha pis, daha aşağı surəti

[xlii] **Osvensim - Auşvits** (Auschwitz) - indiki Polşanın cənubunda nasistlərin yaratdığı 48 konsentrasiya və ölüm düşərgəsindən ibarət düşərgələr şəbəkəsi. Osvensimdə 1,3 milyon-dan çox insan qətlə yetirilib.

[xliii] **Franco Fortini** - italyan marksist intellektual, esseist, tənqidçi, tərcüməçi və şair Franko Lattesin təxəllüsü (Franco Lattes; 1917-1994)